**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№377/5** **13 iyun 2025-ci il**

**2025-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının və qrafikinin hazırlanması barədə**

Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 7.1-ci "2025-ci il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramının IFAC və ACCA-ın beynəlxalq təhsil standartlarının tələbləri nəzərə alınmaqla hazırlanması və qrafiki barədə" bəndinin icrası ilə əlaqədar Palatanın Kadr hazırlığı idarəsi (E.Hacıyeva) tərəfindən IFAC və ACCA-ın beynəlxalq təhsil standartlarının tələbləri nəzərə alınmaqla hazırlanmış 2025-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının və qrafikinin layihələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2025-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı və qrafiki təsdiq edilsin (əlavə olunur).

2. Kadr hazırlığı idarəsinə (E.Hacıyeva) tapşırılsın ki:

2.1. iki həftə müddətində 2025-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının Palatanın üzvlərinə çatdırılması təmin edilsin;

2.2. iki həftə müddətində təsdiq edilmiş proqrama müvafiq olaraq auditorların ixtisasartırma kursunu aparacaq fiziki və (və ya) hüquqi şəxslər müsabiqə komissiyası ilə birlikdə müəyyən edilsin;

2.3. 2025-ci il üzrə auditorların ixtisasartırma kursunu tədris edəcək müəllimlərdən cari ilin 01 avqust tarixinədək tədris materiallarının və ədəbiyyat siyahısının əldə olunması təmin edilsin.

3. Bu qərarın və 2025-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının və qrafikinin mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** *Əsli ilə düzdür* **Vahid Novruzov**

Azərbaycan Respublikasının Auditorlar Palatası – Chamber of Auditors of Azerbaijan Republic – Ümumi şöbə